# Cəmiyyətin Mahiyyəti: Quran və Fəlsəfə Aynasında

**Xədicə Qaraisayeva**[1]

## Abstrakt

Bu məqalə cəmiyyətin mahiyyəti, insanın ictimai varlıq kimi təbiəti, fərd-cəmiyyət münasibətləri və ictimai dəyişmənin ontoloji əsasları mövzularında qarşıya qoyulan fundamental sualları təhlil edir. Tədqiqat, Qərb sosiologiyasının klassik nəzəriyyələri (Durkheyim, Monteskyö, İbn Xəldun) ilə Quranın ictimai fəlsəfəsi arasında müqayisəli analiz aparır. Məqalədə dörd əsas nəzəri model – fərdiyyətçi yanaşma, mexaniki tərkib nəzəriyyəsi, üzvi tərkib nəzəriyyəsi və kollektivist yanaşma – tənqidi təhlil edilir. Quran ayələri və şiə təfsir ənənəsi əsasında cəmiyyətin "həqiqi mürəkkəb" (tərkib-i həqiqi) olduğu, lakin fərdlərin müstəqil şəxsiyyətini qoruduğu "çoxluq daxilində vəhdət, vəhdət daxilində çoxluq" prinsipi əsaslandırılır. Məqalə, həmçinin ictimai qanunların (sünən), fitrət anlayışının və Məhdilik nəzəriyyəsinin cəmiyyətlərin gələcək təkamülündəki rolunu tədqiq edir.

**Açar kəlmələr:** Cəmiyyət fəlsəfəsi, ictimai fitrət, sünənüllah, ictimai təbəqələşmə, tarixi materializm, İbn Xəldun, Emil Durkheyim, Quran sosiologiyası

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran / Bxn0510@gmail.com

## Giriş

Cəmiyyət nədir? Bu sual bəşər tarixi boyu mütəfəkkirləri məşğul edən əsas suallardan biri olmuşdur. İnsanların bir arada yaşamasının mahiyyəti, bu bir arada yaşayışın insan təbiətinin zəruri nəticəsi olub-olmaması, fərdlə cəmiyyət arasındakı münasibətlərin ontoloji əsasları – bütün bu məsələlər həm Qərb fəlsəfəsində, həm də İslam düşüncəsində geniş müzakirə olunmuşdur.

Sosiologiya elminin yaranmasından etibarən alimlər cəmiyyətin mahiyyəti haqqında müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Kimi cəmiyyəti fərdlərin sadə cəmi kimi görmüş, kimi onu fərdlərdən asılı olmayan müstəqil bir varlıq kimi təqdim etmişdir. Emil Durkheyim kimi sosioloqlar "ictimai həqiqətlər"in fərdi həqiqətlərdən tamamilə fərqli olduğunu iddia edərkən, Max Veber kimi alimlər fərdi hərəkətlərin ictimai strukturları formalaşdırdığını vurğulamışlar.

İslam düşüncəsində isə cəmiyyət məsələsi daha dərin fəlsəfi və ilahi əsaslarla təhlil edilmişdir. Quran ayələri cəmiyyətlərin də fərdlər kimi "həyat", "ölüm", "əməl dəftəri", "şüur" və "iradə" sahibi olduğunu bildirərək, cəmiyyətə ontoloji reallıq qazandırır. Bu baxımdan, Quranın cəmiyyət fəlsəfəsi həm Qərb sosiologiyasının fərdiyyətçi yanaşmalarından, həm də onun kollektivist (totalitar) yanaşmalarından fərqlənir.

Bu məqalədə cəmiyyətin mahiyyəti, insanın ictimai təbiəti, fərd-cəmiyyət dialektikası, ictimai təbəqələşmə formaları və cəmiyyətlərin gələcək təkamülü məsələləri Quran ayələri, şiə təfsir ənənəsi və Qərb sosiologiyasının klassik nəzəriyyələri kontekstində müqayisəli təhlil ediləcəkdir.

## 1. Cəmiyyətin Mahiyyəti: Terminoloji və Fəlsəfi Çərçivə

### 1.1. Cəmiyyət Anlayışının Tərifi

Cəmiyyət, bir sıra adət-ənənə və xüsusi qanunlar çərçivəsində bir-biri ilə əlaqədə olan insanlardan təşkil olunan və bu insanların cəm şəklində yaşadığı sosial qurumdur. Lakin cəm halında yaşamaq sadəcə olaraq bir qrup insanın eyni məntəqədə yaşaması, eyni su, hava və qida maddələrindən istifadə etməsi demək deyildir. Bağda olan ağaclar da eyni su, hava və qida maddələrindən istifadə edir; bir sürüdə olan ceyranlar da birlikdə otlayır, birlikdə su içir və birlikdə köç edirlər. Lakin nə ağaclar, nə də ceyranlar ictimai həyata malik deyillər və cəmiyyət təşkil etmirlər.

İnsanın yaşayışı ictimai mahiyyət daşıdığı üçün o, cəmiyyət quruluşuna malikdir. Bir tərəfdən ehtiyaclar, işlər və fəaliyyətlər mahiyyətcə ictimai xarakter daşıyır və yalnız əmək bölgüsü, mülkiyyət bölgüsü müəyyən qayda-qanun çərçivəsində mümkündür. Digər tərəfdən də həmin insanlar üzərində onları birləşdirən bir sıra fikir, ideya və xüsusiyyətlər hakimdir. Başqa sözlə, **cəmiyyət eyni ehtiyaclar, eyni əqidə və fikirlər, eyni qanunlar çərçivəsində yaşayan və bir-biri ilə sıx əlaqədə olan insanlar toplusudur.**

Bu mənada cəmiyyət, eyni avtomobildə, təyyarədə və gəmidə olan sərnişinlərə bənzəyir. Həmin insanlar eyni məqsədə doğru hərəkət edir, birlikdə hədəfə çatır və ya birlikdə qəzaya uğrayaraq yarı yolda qalır, eyni taleyi yaşayırlar.

Peyğəmbər (s) əmr be məruf və nəhy əz münkəri (yaxşıya dəvət, pisdən çəkindirmə) izah edərkən gözəl bir misal çəkmişdir:

"Bir qrup insan gəmiyə minib yola düşdülər. Hər bir sərnişin öz yerində əyləşmişdi. Sərnişinlərdən biri əyləşdiyi yerin yalnız ona məxsus olduğunu iddia edərək oranı deşməyə başladı. Əgər digər sərnişinlər ona mane olsaydılar, nə özləri qərq olardılar, nə də o

biçarə." (Bu hədis "mən özümə cavabdehəm" deyən və cəmiyyət arasında günah və pozğunluğu yaymaq istəyən şəxslərə gözəl bir misaldır. Onlar öz çirkin əməlləri ilə təkcə özlərinə deyil, yaşadığı cəmiyyətin bütün üzvlərinə zərər vururlar.)

### 1.2. İnsan Təbii Olaraq İctimai Varlıqdırmı?

İctimai həyatın hansı amillərin təsiri altında meydana gəlməsi sualı qədim zamanlardan müzakirə olunur. Görəsən, insan ictimai yaradılıbmı? Yəni insan tam bir varlığın kiçik bir hissəsidir və həmin varlığa birləşmək meyli onun daxilindən gələn bir ehtiyacdırmı? Yoxsa insan ictimai yaradılmayıb, sadəcə xarici amillər onu ictimai yaşamağa məcbur edib? Və ya insan öz ağlının hökmü ilə ictimai həyatı könüllü seçib?

Bu məsələni üç əsas nəzəriyyə ilə izah etmək olar:

**1. Təbii (Fitri) Nəzəriyyə:** İnsanın ictimai həyatı təbiidir, onun fitrətində yerləşmişdir. Bunun bariz nümunəsi qadın və kişinin ailə həyatıdır. Onlardan hər biri yaradılış baxımından tam varlığın kiçik hissələridir və hər birinin daxilində tam varlığa birləşmək meyli vardır.

**2. Məcburi Nəzəriyyə:** İnsan məcburən ictimai həyat yaşayır. Buna misal olaraq iki dövlət arasındakı həmkarlıq və müttəfiqliyi göstərmək olar. Bu iki dövlət ümumi düşmən qarşısında bir-biri ilə əlaqə qurmağa məcburdurlar.

**3. Könüllü (Rasional) Nəzəriyyə:** İnsan öz ağlının hökmü ilə ictimai həyatı seçir. Buna misal olaraq iki şəxsin daha çox gəlir əldə etmək üçün müştərək ticarət müəssisəsi yaratmasını göstərmək olar.

Quran ayələri ictimai həyatın insanın fitrətində qoyulduğunu təsdiq edir. Hücurat surəsinin 13-cü ayəsində buyurulur:

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə sizi xalqlara və qəbilələrə ayırdıq.

Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır." (Hücurat, 13)

Bu ayədə əxlaqi əmr verməklə yanaşı, insanın ictimai yaradılışına da işarə olunur. İnsan elə yaradılıb ki, müxtəlif milli qruplar və qəbilələr halında yaşayır. Müxtəlif millət və qəbilələrə bölünməklə, ictimai həyatın zəruriyyətlərindən olan bir-birini tanıma və qarşılıqlı əlaqələr yaratma baş verir.

Fürqan surəsinin 54-cü ayəsində deyilir:

"O, sudan insan yaradan, sonra onu nəsil və qohum-əqraba sahibi edəndir. Rəbbin hər şeyə qadirdir." (Fürqan, 54)

Bu ayə də insanları bir-biri ilə birləşdirən və onların bir-birindən fərqlənməsinin əsası olan nəsil və qohumluq əlaqələrini ön plana çəkərək, bunu bəşərin fitrətində yerləşdirilmiş bir labüdlük kimi tanıdır.

Züxruf surəsinin 32-ci ayəsində isə buyurulur:

"Onlar Rəbbinin rəhmətini bölüşdürürlərmi? Dünya həyatında onların dolanışıq vasitələrini aralarında bölüşdürən, bəzilərini digərlərindən dərəcələrlə üstün edən Bizik ki, onlar bir-birinə xidmət etsinlər. Rəbbinin rəhməti onların yığdıqlarından daha xeyirlidir." (Züxruf, 32)

Bu ayə insanların imkan və istedad baxımından eyni yaradılmadığını göstərir. Əgər hamı eyni şeyə malik olsaydı, heç bir həmkarlığa, qarşılıqlı yardıma ehtiyac qalmazdı. Allah insanları istedad, əqli, ruhi və fiziki imkanlar cəhətindən müxtəlif yaratmaqla onların bir-birinə ehtiyacını təmin etmiş və beləliklə ictimai həyatın yaranması üçün zəmin yaratmışdır.

**2. Cəmiyyətin Ontologiyası: Fəlsəfi Təhlil**

Cəmiyyət fərdlərdən ibarətdir. Əgər fərdlər olmasa, cəmiyyət də ola bilməz. Lakin sual budur: fərdlərlə cəmiyyət arasındakı əlaqə

hansı növdəndir? Cəmiyyət həqiqi varlığa malikdirmi, yoxsa bu sadəcə şərti bir varlıqdır? Bu barədə dörd əsas nəzəriyyə mövcuddur.

### 2.1. Birinci Nəzəriyyə: Şərti Tərkib Nəzəriyyəsi

Bu nəzəriyyəyə görə, cəmiyyətin fərdlərdən ibarət tərkibi həqiqi deyil, şərtidir. Həqiqi tərkib, bir sıra ünsürlərin bir-birinə təsir edərək yeni bir şey meydana gətirməsi ilə yaranır. Məsələn, oksigen və hidrogenin bir-birinə təsiri nəticəsində yeni xüsusiyyətlərə malik "su" meydana gəlir. Həqiqi tərkibin əsas xüsusiyyəti təşkiledici ünsürlərin bir-birinə qarışaraq öz xüsusiyyətlərini itirib "tam"ın içində həll olmasıdır.

İnsanlar isə ictimai həyatda heç vaxt bu şəkildə bir-birinə qarışmır və cəmiyyətin daxilində tam formada həll olmurlar. Deməli, cəmiyyətin həqiqi və zahiri vücudu yoxdur; cəmiyyət şərti vücuda malikdir. Həqiqi varlığa malik olan yalnız fərddir.

Bu nəzəriyyə tamamilə fərdləri əsas götürür, cəmiyyətə və fərdlər cəminə heç bir əhəmiyyət vermir. Hər bir fərdin taleyi digərlərindən asılı olmayaraq müstəqil şəkildə təyin olunur.

### 2.2. İkinci Nəzəriyyə: Mexaniki Tərkib Nəzəriyyəsi

Bu nəzəriyyəyə görə, cəmiyyət təbii tərkibdə birləşən həqiqi mürəkkəb deyil, süni (mexaniki) mürəkkəbdir. Süni mürəkkəb, bir neçə sadə detaldan yığılmış mürəkkəb dəzgaha bənzəyir. Təbii mürəkkəbdə üzvlər külli varlıqda həll olaraq öz şəxsiyyətini itirir. Süni mürəkkəbdə isə üzvlər öz şəxsiyyətlərini qoruyub saxlayır, lakin xüsusi formada bir-biri ilə əlaqə yaradırlar. Nəticədə onların qarşılıqlı təsiri yeni formalı təsir olur.

Məsələn, bir avtomobil müəyyən sürətlə yük daşıyır. Bu hərəkət ayrı-ayrılıqda avtomobilin heç bir hissəsinə aid deyildir, müxtəlif detalların bir-biri ilə əlaqəsi nəticəsində yaranır. Bu, detalların varlığını və kimliyini yox etmir.

Cəmiyyət də bu cürdür. Cəmiyyət əsas və ikinci dərəcəli qurumlardan ibarətdir, burada fərdlər bir-birinə sıx bağlıdır. Bir qurumda baş verən dəyişiklik digər qurumlarda da dəyişikliyə səbəb olur. Fərdlər öz varlıqlarını və kimliklərini itirmədən mürəkkəb varlıq olan ictimai həyatı meydana gətirirlər.

Bu nəzəriyyə də üstünlüyü fərdə verir. Cəmiyyət üzvlərinin bir-birinə bağlılığını nəzərə alaraq insanların müştərək taleyə malik olduqlarını söyləmək mümkündür. Cəmiyyət, üzvlər arasında mexaniki əlaqələr cəhətindən müstəqil bir varlığa malik olur.

**2.3. Üçüncü Nəzəriyyə: Üzvi Tərkib Nəzəriyyəsi**

Bu nəzəriyyəyə görə, cəmiyyət təbii mürəkkəbin bir növü olan həqiqi mürəkkəbdir. Lakin burada bədənlər və üzvlər deyil, ruhlar, fikirlər, ideyalar, istəklər və mədəniyyətlər bir-biri ilə birləşirlər. Maddi ünsürlər bir-birinə təsir edərək yeni xüsusiyyətlərə malik vücud yaratdıqları kimi, ictimai həyata qədəm qoyan insan fərdləri də ruhi cəhətdən bir-biri ilə qarışaraq "ictimai ruh" adlanan yeni ruhi şəxsiyyət yaradırlar.

Bu tərkib xüsusi bir təbii tərkibdir. Üzvlər bir-birinə zahiri və həqiqi təsir göstərdikləri üçün təbii və həqiqi tərkib adlanır. Lakin bu birləşmə digər təbii varlıqlardan fərqlənir. Digər təbii mürəkkəb varlıqlarda üzvlər bir-birinə qarışaraq yeni vahid varlığa çevrilirlər. Cəmiyyətdə isə təsirlər və əlaqələr həqiqi olsa da, cəmiyyət üzvləri yeni şəxsiyyət əldə etsələr də, çoxluq vahid bir varlığa çevrilmir, vahid insan yaranmır.

Bu nəzəriyyə həm fərdi, həm də cəmiyyəti əsas sayır. Fərdlərin cəmiyyət vücudunda həll olması fikrinə etiqadlı olmadığına görə fərdə üstünlük verir. Digər tərəfdən, fərdlərin cəmiyyətdə yeni şəxsiyyət tapmalarına inandığına görə bu nəzəriyyəni cəmiyyəti üstün sayan nəzəriyyə də adlandırmaq olar. Üzv və ünsürlərin qarşılıqlı təsiri nəticəsində yeni həqiqət, yeni ruh, şüur, vicdan,

iradə və istək meydana gəlir. Bu həqiqət fərdi təfəkkür, iradə və vicdandan daha üstündür.

### 2.4. Dördüncü Nəzəriyyə: Kollektivist Nəzəriyyə

Bu nəzəriyyə tamamilə cəmiyyətə üstünlük verir. Bu nəzəriyyəyə görə, yalnız ictimai ruh, ictimai vicdan, ictimai şüur, ictimai iradə və ictimai "mən" mövcuddur. Fərdlərin şüur və vicdanı ictimai şüur və vicdanın kiçik bir hissəsidir.

Bu nəzəriyyəyə görə, insanlar ictimai vücuda malik olmazdan əvvəl heç bir insani şəxsiyyətə malik deyillər. Onlar "ictimai ruhu" qəbul etməyə qadir olan boş bir qaba bənzəyirlər. Əgər ictimai vücudu nəzərə almasaq, insanlar yalnız insanlıq istedadlarına malik olan heyvandırlar. İnsanın insanlığı, yəni öz "mən"liyini hiss etməsi, düşüncəsi, hissləri, meylləri "ictimai ruhun" təsiri altında mümkün olur.

### 2.5. Quran Nəzərindən Cəmiyyətin Ontologiyası

Quran ayələri üçüncü nəzəriyyəni – yəni "üzvi tərkib nəzəriyyəsi"ni təsdiq edir. Quran cəmiyyət və fərdə aid məsələləri elə bəyan edir ki, oradan üçüncü nəzəriyyənin təsdiqi başa düşülür. Quran "ümmətlər" üçün müştərək tale, müştərək şüur, əməl və üsyan təyin edir. Aydındır ki, əgər ümmətin zahiri vücudu olmazsa, tale, idrak, şüur kimi məfhumların da mənası olmaz.

Əraf surəsinin 34-cü ayəsində buyurulur:

*"Hər bir ümmətin əcəli (müəyyən vaxtı) vardır. Onların əcəli gəldiyi zaman nə bir saat yubana bilər, nə də qabağa keçə bilərlər."* (Əraf, 34)

Bu ayədə söhbət dəyişilməz son nöqtəsi olan həyatdan gedir və bu həyat ümmətə məxsusdur. Məlumdur ki, ümmətin ayrı-ayrı fərdləri öz həyatlarını birlikdə və eyni anda deyil, ayrı-ayrı vaxtlarda itirirlər.

Casiyə surəsinin 28-ci ayəsində deyilir:

*"O gün hər ümməti diz çökmüş görəcəksən. Hər ümmət öz kitabına (əməl dəftərinə) tərəf çağırılacaqdır."* (Casiyə, 28)
Bu ayədən məlum olur ki, təkcə fərdlərin deyil, cəmiyyətlərin də əməl dəftərləri vardır. Onlar da qanunları pozur, yaşayır və boyunlarında vəzifə daşıyırlar.

Ənam surəsinin 108-ci ayəsində buyurulur:

*"Hər bir ümmət öz əməlini (və ya peyğəmbərini) özünə gözəl göstərdi."* (Ənam, 108)

Bu ayə hər ümmətin vahid şüura, müəyyən dəyərlərə və xüsusi düşüncə tərzinə malik olduğunu sübut edir.
Ğafir surəsinin 5-ci ayəsində deyilir:

*"Hər ümmət öz peyğəmbərini tutub öldürməyə cəhd göstərdi və haqqı yalana çıxartmaq üçün boş sözlərlə mübahisə apardı. Mən də onları əzabla yoxladım. Mənim cəzam necə oldu!"* (Ğafir, 5)

Bu ayədə söhbət səhv ictimai iradə və səhv verilmiş qərardan gedir, haqqa qarşı yersiz mübarizə haqqında verilmiş ictimai qərardan və belə ictimai qərarın cəzasının ümumi və ictimai əzab olmasından gedir.

Quranda bəzi hallarda bir cəmiyyətin üzvlərindən olan bir şəxsin işi bütün cəmiyyətə aid edilir. Məsələn, Səmud qövmünün hadisəsində Salehin dəvəsinin kəsilməsi bütün ümmətə aid edilir. Halbuki bu işi təkcə bir nəfər etmişdi, lakin bütün qövm cinayətkar sayılır.

İmam Əli (ə) Nəhcül-bəlağədə buyurur:

"Ey camaat! Hamını toplu halında birləşdirən, onlar arasında vəhdət yaradan və ümumi tale bəxş edən şey, razılıq və qəzəbdir. (Əgər xalq baş vermiş işə – hətta bir nəfər tərəfindən baş versə belə – razı və ya narazı olsa, hamı eyni taleyə düçar olar.) Allah Öz əzabını ümumi şəkildə bütün Səmud xalqına göndərdi. Çünki

bütün xalq bir nəfərin gördüyü işə razı idi. Baş vermiş əməl əslində hamı tərəfindən qəbul olunmuş qərar idi. Allah Öz sözlərində (Quranda) dəvəni öldürmək işini bir nəfərin əməli olduğu halda bütün xalqa aid etdi və buyurdu: 'O xalq öldürüldü', daha demədi ki, 'o xalqdan bir nəfər öldürüldü'." (Nəhcül-bəlağə, xütbə 201)

Əl-mizan təfsirində müəllif Allamə Təbatəbai yazır:

"Əgər cəmiyyət vahid ruhda və vahid ictimai fikirdə olarsa, şəxs formasına düşür və cəmiyyət üzvləri insan bədəninin üzvlərinə, üzvlərin ləzzət və dərdləri isə insanın dərd və sevincinə çevrilir." (Əl-mizan, c. 4, s. 118)

**3. Cəmiyyət və Adət-Ənənə: İctimai Qanunlar**

Əgər cəmiyyət həqiqi varlığa malikdirsə (üçüncü nəzəriyyəyə əsasən), onda onun özünəməxsus qanun və adət-ənənələri olmalıdır. Bu qanunlar ayrı-ayrı fərdlərin adətlərindən fərqlənir.

İslam alimləri arasında cəmiyyətin özünəməxsus qanun və adətlərindən söz açan ilk alim **Tunisli Əbdürrəhman ibn Xəldun** (1332-1406) olmuşdur. O, bu barədə özünün məşhur "Müqəddimə" əsərində geniş bəhs etmişdir. İbn Xəldun "əsaibiyyə" (qrup hissi) nəzəriyyəsi ilə cəmiyyətlərin yaranması, inkişafı və süqutunu izah etmişdir.

Müasir alimlərdən isə cəmiyyət həyatı üzərində hakim olan qanunları araşdıran **Şarl Lui Monteskyö** (1689-1755) olmuşdur. O, "Qanunların ruhu haqqında" (De l'esprit des lois) əsərində iqlim, coğrafiya və tarixin ictimai qanunlara təsirini tədqiq etmişdir.

Fransız sosioloqu **Reymon Aron** (1905-1983) Monteskyö barəsində yazır:

"Onun hədəfi tarixi dərk oluna biləcək hala salmaqdır. O, tarixi məlumatın mənasını dərk etməyə çalışır. Tarixi məlumat ona

müxtəlif şəkildə, çox sayda adət-ənənə, fikir, qanun və ictimai qurum formasında çatdırılır. O, bu müxtəlifliyi nizama sala biləcək bir qayda kəşf etmək istəyir." (Aron, "Sosiologiya düşüncəsinin əsas mərhələləri")

Romalıların böyüklüyü və süqutunun səbəblərini araşdıran əsərdə deyilir:

"Dünyada təsadüf hökm sürmür. Bütün dövlət sistemlərində, istər əxlaqi, istərsə də cismani səbəblər vardır ki, dövlətin yaranmasına, inkişafına, möhkəmlənməsinə və zəifləyib dağılmasına səbəb olur. Bütün baş verənlər bu səbəblərdən asılıdır." (Monteskyö, "Romalıların böyüklüyü və süqutunun səbəbləri haqqında düşüncələr")

Quran bu mənada "sünən" (adət-ənənələr) anlayışını işlədir. Quran cəmiyyətlər üçün dəyişməz qanunların (sünənüllah) mövcud olduğunu bildirir:

*"(Bu,) keçmişdə gəlib-gedənlər haqqında Allahın qoyduğu bir qanundur. Sən Allahın qanununda heç vaxt dəyişiklik tapa bilməzsən!"* (Əhzab, 62)

*"Allahın yolu budur. Əvvəllər də belə olmuşdur. Sən Allahın yolunda heç bir dəyişiklik tapa bilməzsən!"* (Fəth, 23)

İsra surəsində Bəni-İsrail barəsində buyurulur:

"Biz Kitabda (Tövratda) İsrail oğullarına: 'Siz yer üzündə iki dəfə fəsad törədəcək və böyük tüğyan edəcəksiniz' – deyə bildirdik. Onlardan birincisinin (cəza) vaxtı gəldikdə üstünüzə çox güclü qullarımızı göndərdik. Onlar evlərinizin arasında gəzib-dolaşdılar. Bu, yerinə yetirilmiş bir vəd idi. Sonra sizə onların üzərində yenidən qələbə çaldırdıq, var-dövlət və oğullarla kömək göstərdik və sayca sizi çoxaltdıq. Yaxşılıq da etsəniz, özünüzə edərsiniz, pislik də. İkinci (fəsadınızın) vaxtı gəldikdə, üzünüzü qara etsinlər, birinci dəfə girdikləri kimi məscidə (Beytül-

müqəddəsə) girsinlər və ələ keçirdikləri hər şeyi darmadağın etsinlər deyə (düşmənlərinizi üstünüzə göndərdik). Ola bilsin ki, Rəbbiniz sizə rəhm etsin. Əgər siz (yenidən fəsad törətməyə) qayıtsanız, Biz də (cəzaya) qayıdarıq." (İsra, 4-8)

Bu ayələr göstərir ki, cəmiyyətlər üzərində hakim olan qanunlar ənənə halındadır və dəyişməzdir.

## 4. İcbar ya İxtiyar: Fərd-Cəmiyyət Dialektikası

Son əsrlərdə ən çox müzakirə olunan məsələlərdən biri də insanın fərdi və ictimai məsələlər qarşısında azad və muxtar olması və ya məcbur olmasıdır.

### 4.1. Nəzəri Modellər

Əgər birinci nəzəriyyəni (şərti tərkib) qəbul etsək, ictimai icbarın olmaması aydındır. Çünki fərdi güc və qüdrətdən başqa ictimai güc adlı bir şey yoxdur.

Dördüncü nəzəriyyəni (kollektivist) qəbul etsək, fərdin ixtiyar sahibi olması fikrinə heç bir əsas qalmır.

Məşhur fransız sosioloqu **Emil Durkheyim** (1858-1917) cəmiyyətin əsas olması tərəfdarı kimi deyirdi:

"İctimai işlər (yatmaq, yemək kimi işlərin əksinə olaraq) fərdin iradə və fikrinin deyil, cəmiyyətin məhsuludur. Onlar üç xüsusiyyətə malikdir: xarici, icbari və ümumi olmaq. Xarici olması fərdin vücudundan kənardan – yəni cəmiyyət tərəfindən – onun boynuna qoyulmasına görədir. İcbari olması isə onların özlərini zorla şəxsə qəbul etdirərək onun vicdanını, fikrini, hisslərini öz nüfuzları altına alması səbəbindəndir." (Durkheyim, "Sosioloji metodun qaydaları")

Durkheyimin "icbar" nəzəriyyəsi insan fitrətinin unudulmasından irəli gəlir. Üçüncü nəzəriyyəyə (üzvi tərkib) görə

isə, cəmiyyətin qüvvəsi şəxsi qüvvədən çoxdur, lakin şəxslər ictimai işlərdə tam icbara tabe olmurlar.

## 4.2. Quranın Mövqeyi

Quran cəmiyyətin təbiət, şəxsiyyət, qüvvə, həyat, ölüm, vicdan sahibi olduğunu qeyd etməklə yanaşı, insanın ictimai hadisələrə qarşı çıxmağa qadir olduğunu da bildirir. Quran "fitrətullah" (ilahi fitrət) üzərində təkid edir.

Nisa surəsinin 97-ci ayəsində buyurulur:

*"Mələklər özlərinə zülm edənlərin canlarını aldıqları zaman onlara: 'Siz nə halda idiniz?' – deyə soruşacaqlar. Onlar: 'Biz yer üzündə zəif (məzlum) idik' – deyə cavab verəcəklər. Mələklər deyəcəklər: 'Allahın yeri geniş deyildimi ki, siz orada hicrət edəydiniz?' Onların sığınacağı cəhənnəmdir. Ora nə pis qayıdış yeridir!"* (Nisa, 97)

Bu ayədə Məkkə cəmiyyətində özünü zəif adlandıran və fitri məsuliyyətlərini yerinə yetirməmək üçün zəifliklərini bəhanə gətirən, cəmiyyət qarşısında icbara tabe olduqlarını iddia edən bir qrupun bəhanələrinin qəbul olunmayacağı bildirilir. Çünki onların ən azı həmin cəmiyyətdən hicrət edərək başqa ictimai şəraitə köçmək imkanları var idi.

Maidə surəsinin 105-ci ayəsində buyurulur:

*"Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin öz borcunuzdur. Siz doğru yolda olsanız, haqq yoldan azanlar sizə heç bir zərər yetirə bilməzlər. Hamınızın axır dönüşü Allahadır. O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir!"* (Maidə, 105)

Məşhur "Zərr" ayəsində (Əraf, 172) Allah-təala tövhidi insanların fitrətində yerləşdirdiyinə işarə etdikdən sonra buyurur:

*"Yaxud: 'Atalarımız müşrik olublar, biz də onlardan sonra gələn nəslik. Bizi batil iş görənlərin etdiklərinə görə məhv*

*edəcəksən?' – deməməyiniz üçün (peyğəmbərlər göndərdik)."* (Əraf, 173)

Bu ayə göstərir ki, Allahın verdiyi fitrət heç bir icbarla dəyişdirilə bilməz.

Fərdin cəmiyyət qarşısında məcbur olması fərziyyəsinin kökü, həqiqi tərkibin yaranması üçün üzvlərin bir-birinə qarışıb həll olması fikrindədir. Lakin fəlsəfi nöqteyi-nəzərdən bütün həqiqi tərkibləri eyni saymaq olmaz. Təbiətin aşağı səviyyələrində üzvlər tamamilə bir-birinə qarışaraq həll olur. Tərkib yüksəldikcə üzvlər daha çox müstəqillik əldə edir. İnsan vücudu buna bariz nümunədir. O, vahid olduğu halda ayrı-ayrı ünsürlərin cəmidir və bu ünsürlər öz qüvvə və müstəqilliklərini qoruyurlar.

Cəmiyyət təbiətin ən ali varlığıdır və onun üzvlərinin nisbi azadlığı daha çoxdur. İnsanlar fitri ağıl və iradəyə malikdirlər və fərdi ruh cəmiyyət qarşısında azad və ixtiyar sahibidir.

## 5. İctimai Qütbləşmələr və Təbəqələr

Cəmiyyət müəyyən vəhdətə malik olmasına baxmayaraq, müxtəlif və bəzi hallarda bir-birinə zidd olan qruplara, təbəqələrə və siniflərə bölünür. Bu bölünmə haqqında iki məşhur nəzəriyyə vardır.

### 5.1. Tarixi Materializm Nəzəriyyəsi

Bu nəzəriyyəyə görə, hər şey mülkiyyət ünsüründən asılıdır. İbtidai icma quruluşu kimi xüsusi mülkiyyət forması olmayan cəmiyyətlərdə bir təbəqə olur. Xüsusi mülkiyyət formasına malik cəmiyyətlər isə iki quruma malik olur: istismarçılar və istismar olunanlar, hakimlər və məhkumlar. Cəmiyyətin digər ünsürləri (fəlsəfə, əxlaq, din, mədəniyyət) də iki qrupa bölünür. Bunların hər ikisinin cəmiyyətdə öz nüfuzu var.

**Karl Marks** (1818-1883) "Kapital" əsərində yazır:

"Mövcud cəmiyyətin iqtisadi strukturu onun real əsasını təşkil edir və hüquqi və siyasi üstqurum bu əsas üzərində yüksəlir. Müəyyən ictimai şüur formaları bu real əsasa uyğun gəlir. Maddi həyatın istehsal tərzi ümumən ictimai, siyasi və mənəvi həyat proseslərini şərtləndirir." (Marks, "Kapital", I cild)

## 5.2. Çoxtəbəqəli Cəmiyyət Nəzəriyyəsi

Bu nəzəriyyəyə görə, cəmiyyətin təkqütblü, ikiqütblü və ya çoxqütblü olması mülkiyyət formasından asılı deyil. İdeoloji, mədəni, ictimai amillər də cəmiyyətin çoxtəbəqəli olmasına səbəb ola bilər. Mədəni və ideoloji amillər cəmiyyəti nəinki iki, hətta bir neçə qütbə bölə bilər.

**Max Veber** (1864-1920) bu barədə yazır:

"Sinif, status və partiya – bunlar gücün cəmiyyət daxilində bölüşdürülməsinin üç ölçüsüdür. İqtisadi sinif mühüm olsa da, status qrupları (şərəfə əsaslanan) və siyasi partiyalar da cəmiyyətin təbəqələşməsində mühüm rol oynayır." (Veber, "İqtisadiyyat və cəmiyyət")

## 5.3. Quranın Mövqeyi

Quranda ictimai təbəqələşməni göstərən anlayışlar mövcuddur: qövm, ümmət, qəbilə, şöbə, mömin, kafir, münafiq, müşrik, mühacir, mücahid, siddiq, şəhid, müttəqi, saleh, zalım, müstəkbir, müstəzəf, kasıb, varlı və s.

## Nəticə

Bu tədqiqat göstərir ki, cəmiyyət sadəcə fərdlərin mexaniki cəmi deyil, özünəməxsus həyat, şüur, iradə və taleyə malik olan mürəkkəb bir varlıqdır. Quranın cəmiyyət fəlsəfəsi üçüncü nəzəriyyəni – "üzvi tərkib nəzəriyyəsi"ni təsdiq edir. Bu nəzəriyyəyə görə, cəmiyyət həqiqi varlığa malikdir, lakin fərdlər bu varlıq daxilində öz müstəqilliklərini və ixtiyarlarını qoruyurlar.

İnsan fitrətən ictimai varlıqdır. Onun ictimai olması nə saf məcburiyyət, nə də saf ixtiyar nəticəsindədir. İnsan öz fitrətinin hökmü ilə ictimai həyata meyl edir, lakin bu həyat daxilində azad iradəsini qoruyur.

Cəmiyyətlərin gələcəyi vahid dünya cəmiyyətinə doğrudur. İnsan fitrəti və tarixin məntiqi bəşəriyyəti vahid haqq din ətrafında birləşməyə aparır. Bu nəticələr göstərir ki, Quranın cəmiyyət fəlsəfəsi həm Qərb sosiologiyasının fərdiyyətçi yanaşmalarından, həm də onun kollektivist yanaşmalarından fərqlənən orijinal və dərin bir fəlsəfi sistemdir. Bu sistem fərd və cəmiyyət, iradə və qanun, dəyişən və sabit arasında mürəkkəb dialektik əlaqəni əks etdirir.

## Qaynaqlar

Qurani-Kərim

Təbatəbai, Seyyid Məhəmməd Hüseyn – "Əl-mizan fi təfsiril-Quran", 20 cilddə, Beyrut: Əl-Ələmi nəşriyyatı, 1974. (Xüsusilə c. 4, s. 118; c. 15, s. 212; c. 16, s. 345)

Təbatəbai, Seyyid Məhəmməd Hüseyn – "Şiədə Quran", Qum: Cəmiyyət-i Müdərrisin, 1982.

Qəzvini, Məhəmməd Kazim – "Əl-bəyan fi təfsiril-Quran", Nəcəf: Mətbəətül-Ədəb, 1968.

Şirazi, Nəsir Məkarim – "Təfsiri-nümunə", 27 cilddə, Tehran: Darul-kutubil-İslamiyyə, 1995.

Kuleyni, Məhəmməd ibn Yəqub – "Üsuli-kafi", 8 cilddə, Tehran: Darul-kutubil-İslamiyyə, 1986.

Məclisi, Məhəmməd Baqir – "Biharül-ənvar", 110 cilddə, Beyrut: Müəssisətül-vəfa, 1983.

Hurr Amili, Məhəmməd ibn Həsən – "Vəsailüş-şiə", 30 cilddə, Qum: Müəssisətü Alil-beyt, 1993.

Nuri, Hüseyn – "Müstədrəkül-vəsail", 18 cilddə, Qum: Müəssisətü Alil-beyt, 1988.

Şərif Rəzi, Məhəmməd ibn Hüseyn – "Nəhcül-bəlağə" (İmam Əlinin (ə) xütbə, məktub və kəlamları), Qum: Dəftər-i nəşr-i Nəhcül-bəlağə, 1990. (Xütbə 201)

İbn Xəldun, Əbdürrəhman – "Müqəddimə" (tərc. Zəki Məhəmməd Mübarək), Qahirə: Dərul-fikril-ərəbi, 1960.

Fərabi, Əbu Nəsr – "Əl-mədinətül-fazilə", Beyrut: Dərul-maşrıq, 1986.

İbn Sina, Hüseyn ibn Abdullah – "Əş-Şifa: İlahiyyat", Qum: Məktəbətül-İslami, 1985.

Sədrəddin Şirazi, Molla Sədra – "Əl-hikmətül-mütəaliyə fil-əsfaril-ərbəə", 9 cilddə, Beyrut: Darul-ihya, 1981.

Şəhid Mütəhhəri, Mürtəza – "Cəmiyyət və tarix", Tehran: Sədra nəşriyyatı, 1992.

Şəhid Mütəhhəri, Mürtəza – "İnsan və fitrət", Tehran: Sədra nəşriyyatı, 1991.

Şəhid Mütəhhəri, Mürtəza – "İslam və ictimai ədalət", Tehran: Sədra nəşriyyatı, 1993.

Şəhid Sədr, Məhəmməd Baqir – "Fəlsəfətuna" (Bizim fəlsəfəmiz), Beyrut: Darul-kitabil-lübnani, 1975.

Şəhid Sədr, Məhəmməd Baqir – "İqtisaduna" (Bizim iqtisadiyyatımız), Beyrut: Darul-kitabil-lübnani, 1977.

Şəhid Sədr, Məhəmməd Baqir – "Əl-mədrəsətül-Quraniyyə", Qum: Mərkəzül-əlami, 1982.